# Səyyar qəbullar

Yaşanılan ömür daima müəyyən problemlərlə dolu olur. Həyat mübarizədir və insan yaşadığı


Nohurqışlaq kəndi.

dövrdə çox çətinliklərlə qarşılaşır. Bəzən elə problemlərlə qarşılaşır ki, onların həlli tək özünün mübarizəsi ilə hasilə yetmir. O zaman xeyirxah insanlar onun çətinliklərinin həllində birgə mübarizəyə qoşulurlar. Axı xeyirxahlıq xalqımıza xas olan ən gözəl xüsusiyyətdir. İnsanların insan adının təsdiqidir xeyirxahlıq! Hər kəs öz gücü müqabilində bu missiyanı davam etdirərsə, insanların yaşam tərzində bu müsbət rol oynayar və oynayır.

Rayonumuzun sakinlərinin rifah-halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.

Bu ilin yanvar ayında səyyar qəbullar Nohurqışlaq və Yengicə kəndlərində keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılmışdır. Səyyar qəbullar zamanı sakinlər tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilmişdir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.




Yengicə kəndi.



**“Qəbələ səsi”.**
**Fotolar S. Umuyevindir.**

# Vətəndaş qəbulu



Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən növbəti dəfə vətəndaşların qəbulu keçirilib. Qəbulda vətəndaşların müraciətləri və irəli sürdükləri təkliflər RİH başçısı tərəfindən dinlənilmiş, bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür. Vətəndaşlar onlara göstərilən diqqət və qayğıya görə ölkə başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirmişlər.

# Bakıda yeni kollektor şəbəkəsi qurulacaq

Ölkənin su təhlükəsizliyinin möhkəmləndirilməsi, paytaxt Bakı və Abşeron yarımadasının sosial-iqtisadi inkişafının davamlı əsaslar üzərində qurulması baxımından yanvarın 12-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirə mühüm əhəmiyyət daşıyır. Müşavirədə Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illəri əhatə edən Dövlət Proqramının əsas konturları müəyyənləşdirilib. Uzunmüddətli və kompleks yanaşmanı ehtiva edən bu sənəd urbanizasiya proseslərinin düzgün idarə olunmasına, əhalinin həyat keyfiyyətinin yüksəldilməsinə və ekoloji tarazlığın qorunmasına xidmət edir.

Prezident İlham Əliyevin müşavirədə qaldırdığı bir sıra vacib məsələlər sırasında paytaxt Bakı və Abşeron yarımadasında uzun illərdir yığılıb qalmış içməli su problemləri xüsusi aktuallığı ilə seçilir. Bu problemlər zaman-zaman müxtəlif tədbirlərlə aradan qaldırılmağa çalışılsa da, artan əhali sayı, intensiv şəhərsalma prosesi və mövcud infrastrukturun köhnəlməsi məsələnin daha sistemli yanaşma tələb etdiyini göstərir. Məhz bu reallıqlar fonunda dövlətimizin başçısının məsələni strateji müstəvidə gündəmə gətirməsi xüsusi əhəmiyyət kəsb edir. Bu gün artıq aydın görünür ki, Bakı şəhəri, onun qəsəbələri, Sumqayıt şəhəri və Abşeron rayonunu əhatə edən vahid, genişmiqyaslı və əhatəli Dövlət Proqramının qəbulu zəruri xarakter alıb. Belə bir proqram region üzrə su təchizatının bütövlükdə yenidən qurulmasını, mövcud çatışmazlıqların mərhələli şəkildə aradan qaldırılmasını və gələcək onilliklər üçün dayanıqlı su təminatının yaradılmasını hədəfləməlidir. Bu yanaşma yalnız əhalinin gündəlik həyatına birbaşa təsir edən problemlərin həllinə xidmət etmir, həm də paytaxt regionunun sosial-iqtisadi inkişafının davamlı əsaslar üzərində qurulmasına imkan verir. Dövlət proqramı çərçivəsində həm mövcud su şəbəkələrinin modernləşdirilməsi, həm də yeni infrastruktur layihələrinin reallaşdırılması nəzərdə tutulur ki, bu da regionun gələcək inkişafı üçün mühüm əhəmiyyət daşıyır.

**(Ardı 5-ci səhifədə).**

# Şəhər və rayon icra hakimiyyətlərinin aparatında struktur dəyişiklikləri edilib

Azərbaycanın şəhər və rayon icra hakimiyyətlərinin aparatında Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən struktur dəyişiklikləri edilib. Nəticədə şəhər, qəsəbə və kənd icra nümayəndəliklərində bir sıra şöbələr ləğv edilərək sektorlarla əvəzlənib, bəzi şöbələr isə birləşdirilib.

Yenidən formalaşdırılmadan sonra icra nümayəndəliklərində ştat vahidləri aşağıdakı kimi saxlanılıb:

Şəhər və ya sahə inzibati ərazi dairəsi üzrə - icra hakimiyyəti başçısının nümayəndəsi, baş məsləhətçi - ev təsərrüfatının uçotu işinin aparıcısı, məsləhətçi (mühəndis), aparıcı mütəxəssis və xadimə. Cəmi 5 işçi.

Qəsəbə və kənd inzibati ərazi dairəsi üzrə (əhali sayı 10 minədək olanda) - İcra başçısının nümayəndəsi, baş məsləhətçi - ev təsərrüfatının uçotu işinin aparıcısı, xadimə. Cəmi 3 ştat.

Qəsəbə və kənd inzibati ərazi dairəsi üzrə (əhali sayı 10 mindən yuxarı olanda) - icra başçısının nümayəndəsi, baş məsləhətçi - ev təsərrüfatının uçotu işinin aparıcısı, məsləhətçi və xadimə. Cəmi 4 işçi.

Qəsəbə və kənd icra nümayəndəlikləri formalaşdırılanda əhali sayı nəzərə alınıb. Əhalisi 10 min nəfərədək olan ərazilərdə icra nümayəndəliklərinin 3, əhalisi 10 mindən çox olanda 4 əməkdaşı olacaq.

Aparılan dəyişikliklər çərçivəsində bir sıra şöbələr ləğv edilərək, onların yerinə sektorlar yaradılıb. Bu yeniliklər icra hakimiyyətlərinin işini daha çevik və səmərəli etməyə yönəlib.

Yeni təşkilati strukturla əlaqədar olaraq, həmçinin dövlət qurumlarında da ştat sayı da azaldılıb. Bu addım, dövlət idarəçiliyində səmərəliliyi artırmaq və bürokratik əngəlləri minimuma endirmək məqsədi güdür.

Bir digər mühüm dəyişiklik isə icra hakimiyyətlərinin mühasibatlıq şöbələrinin ləğv edilməsi olub. Bu tədbir, maliyyə idarəçiliyi və nəzarət sisteminin daha müasir və şəffaf şəkildə qurulmasına yönəlmiş addım kimi qiymətləndirilir. Mühasibatlıq işləri yeni strukturda daha mərkəzləşdirilmiş şəkildə həyata keçiriləcək.

Dəyişikliklərin məqsədi, həmçinin yerli idarəetmə orqanlarının işini daha çevik və effektiv etmək, vətəndaşlara daha keyfiyyətli xidmət göstərməkdir.

İcra hakimiyyətlərindəki bu struktur islahatları, dövlətin idarəetmə sistemindəki modernləşmə və inkişaf istiqamətində atılan vacib addımlar kimi qiymətləndirilir.

# ADY yeni marşrut üzrə sərnişindaşıma xidmətinə başlayır

AZCON Holding şirkətlərindən olan “Azərbaycan Dəmir Yolları” QSC (ADY) sərnişin məmnuniyyətinin daha da yüksəldilməsi məqsədilə 12 yanvar 2026-cı il tarixindən etibarən ilk dəfə Gəncə-Qəbələ-Gəncə marşrutu üzrə müntəzəm sərnişindaşıma xidmətinə başlayır.




Bu, Gəncə - Mingəçevir - Gəncə marşrutundan sonra ADY-nin ikinci regiondaxili sərnişindaşıma marşrutu olaraq bölgələrdə nəqliyyatın əlçatanlığının təmin edilməsinə, regionlararası nəqliyyat bağlantısının və mobilliyin genişləndirilməsinə xidmət edəcək.

Marşrut üzrə sərnişinlərə oturacaq tipli müasir elektrik qatarları ilə xidmət göstəriləcək. Qatarlar hər gün saat $10^{10}$-da Gəncə Dəmiryol Vağzalından Qəbələ istiqamətinə, saat $18^{00}$-da isə Qəbələdən Gəncəyə hərəkət edəcək. Səfərin ümumi müddəti 1 saat 50 dəqiqə təşkil edəcək.

Sərnişinlər ümumi uzunluğu 139 kilometr olan marşrut üzrə Goran, Yevlax, Ləki və Ağdaş stansiya və dayanacaqlarından da istifadə edə biləcəklər.

Qatarlarda standart, standart+, biznes və birinci siniflər üzrə səyahət imkanları təklif olunacaq. Biletlərin minimal qiyməti Gəncə-Qəbələ istiqamətində 4.30 AZN, Ləki-Qəbələ istiqamətində isə 1.70 AZN təşkil edəcək.

Bu reys Bakıdan Qəbələyə və əks istiqamətə hər gün səfər etməyə də imkan verəcək. Belə ki, Bakı-Qazax qatarı ilə saat $10^{50}$-də Ləki stansiyasına çatıb, daha sonra saat $11^{12}$-də Gəncə - Qəbələ istiqamətində hərəkət edən qatarla Qəbələyə səfər etmək mümkün olacaq. Sərnişinlər Qəbələ - Gəncə qatarından istifadə edərək saat $18^{45}$-də Ləki stansiyasına çatıb, saat $19^{02}$-də Qazax-Bakı qatarı ilə Bakıya gələ bilərlər.

Biletləri 5 yanvar 2026-cı il tarixindən etibarən ADY-nin rəsmi veb-saytı və “ADY Mobile” tətbiqi vasitəsilə əldə etmək mümkündür.